## *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*

UOT 372.881.111.1

**Firuzə Ədalət qızı Rzayeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

# TƏLİM PROSESİNDƏ MÜSTƏQİL İŞİN TƏŞKİLİ ZAMANI YARADICI FƏALİYYƏTİN ROLU

**Фируза Адалат гызы Рзаева**
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Университет Языков*

# РОЛЬ ТВОРЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ В УЧЕБНОМ ПРОЦЕССЕ

**Firuza Adalat Rzayeva**
*doctor of philosophy in pedagogy, associate professor*
*Azerbaijan University of Languages*

# THE ROLE OF CREATIVE ACTIVITY IN FORMATION OF INDEPENDENT WORK IN THE TRAINING PROCESS

**Xülasə.** Bu gün hər bir müəllimin ümdə vəzifəsi təlim prosesində müstəqil işin təşkili zamanı şagirdlərin yaradıcı fəaliyyətini araşdırmağı, müstəqilliyini təmin etməyə, hər bir tədqiqatçını düşünməyə, təfəkkür fəaliyyətinə alışmağa, sərbəst işləməyə sövq etməkdir.
***Açar sözlər:*** *müstəqil iş, təlim fəaliyyəti, yaradıcı fəaliyyət, xarici dil*

**Резюме.** Сегодня основная задача каждого преподавателя - изучить творческую активность студентов в организации самостоятельной работы в учебном процессе, обеспечить их автономность, побудить каждого исследователя думать, привыкать к мышлению, работать самостоятельно.
***Ключевые слова:*** *самостоятельная деятельность, учебная деятеленость, творческой деятельности,иностранный язык*

**Summary.** Today the main task of any student, teacher doing research on searching creative activity of pupils in formation of independent work in the process of training is to encourage pupils to be adopted to thinking, creative activity, to work independently.
***Key words***: *independent work, training, cteative activity, foreign language*

Təlim prosesində şagirdlərin mənimsəmə keyfiyyətinə təsir göstərən amillər sırasında şagirdlərin yaradıcı fəaliyyətinə də ciddi fikir verilir. Təlimdə şagird fəaliyyətinin bəzi xüsusiyyətlərini qruplaşdırmaq yolu ilə bu işin təşkili vəziyyəti öyrənilsə də, lakin bu prosesin özündə yaradıcı xüsusiyyətlərin əsas məğzi, istiqamətləri tam halda tədqiqat mənbəyi olmamışdır. Yaradıcı fəaliyyət bəs onda necə səciyyələndirilir? Onun mahiyyətinə ədəbiyyatlarda necə münasibət göstərilir?

Araşdırılan mövzunun tematikasına uyğun olaraq qeyd etmək lazımdır ki, şagirddə yaradıcı fəallığı stimullaşdıran məqamlar çoxdur. Bu cəhətdən, təlimdə şagird fəaliyyəti üçün önəmli olan bəzi xüsusiyyətləri sadalamaq yerinə düşər. Bunlar aşağıdakılardır:

– Şagirdlərin öyrənmə fəaliyyətində dərketmə əməliyyatları;

– Şagirdlərin öyrənmə fəaliyyətində dərk etmək əməliyyatlarının təzahür formaları;

– Şagirdlərin öyrənmə fəaliyyətində motivasiyaların çıxarılması;

– Şagirdlərin öyrənmə fəaliyyətində dərketmə maraqlarının öyrənilməsi;

– Şagirdlərin öyrənmə fəaliyyətində pedaqoji ünsiyyətin yerinin müəyyənləşdirilməsi;

– Şagirdlərin öyrənmə fəaliyyətində özünüfəallığın, təşəbbüskarlığın və müstəqilliyin yer alması.

Bu təsnifatdan irəli gələn məntiqi nəticə ondan ibarətdir ki, göründüyü kimi "təlim zamanı şagird fəallığının təzahür formalarını üç qrupa ayırmaq olar: zahiri fəallıq, daxili fəallıq və yaradıcı fəallıq" Biz öz araşdırmamızın məzmununa uyğun olaraq bu məqalədə yalnız yaradıcı fəallıq kontekstindən məsələni təhlil-tərkib etməyi nəzərdə tutduğumuzdan, "yaradıcı fəallığın" əvvəlcə özünün mahiyyətinin ədəbiyyatda qoyuluşuna diqqət yetirdik. Məlum oldu ki, "fəallığın yüksək forması yaradıcı fəallıqdır". Bu barədə "Məktəb pedaqogikası" dərsliyində qeyd olunur: "Fəallığın yüksək forması yaradıcı fəallıqdır. Qoyulan vəzifəni, verilən tapşırığı həll etmək üçün yollar araşdırıb tapmaq, onun öhdəsindən gəlmək, bəzən də orijinal vasitələr müəyyənləşdirmək yaradıcı fəallıq üçün səciyyəvidir. Yaradıcı fəallıq şagirdin şüurlu şəxs kimi formalaşmasında mühüm rol oynayır. Şagirdin təlimdə fəallıq və müstəqillik səviyyəsi, onun gələcək həyat mövqeyini xeyli dərəcədə şərtləndirir" [6, s. 133].

Problemin bu cür qoyuluşu, əlbəttə təlim prosesində həm şagirdlərin tədris, həm də idrak fəallığını şərtləndirən yaradıcı (kreativ) düşüncəsini işə salmaq bacarığından getdiyindən bu prosesin ümumişlək texnologiyasını əks etdirən yanaşmanı da qiymətləndirmək zənn edirəm ki, məqbul iş üsulu kimi öz əksini tapa bilmişdir. Məsələnin əsil mahiyyəti ondadır ki, "son dövrün məhsulu olan interaktiv üsul yaradıcı fəallığın nümunəsidir. İnteraktiv ingilis sözüdür, daha fəal deməkdir. Mahiyyəti dərs zamanı müəllim+şagird, şagird+müəllim formulunu müəllim+şagird, şagird+mövzu, şagird+şagird formuluna çevirməkdən ibarətdir." [6, s. 134]

Problemin mahiyyətini və strukturunu öyrənən tədqiqatçılar haqlı olaraq şagirdlərin yaradıcı fəaliyyətini məhz, təlim prosesinin əsas təşkili forması olan dərs və onun digər təşkili formaları olan laborator məşğələlərlə, praktik işlərlə, praktikumlarla, ekskursiyalarla (tədris), kollokvumlarla, dərnəklərlə, maraq kursları, müzakirə dərsləri, seminar, imtahan və zaçotlarla bağlayaraq təşkil forması kimi də təqdim edirlər. Ona "fəaliyyətin təşkili" nöqteyi-nəzərdən təhlil verirlər. Məsələn, professor A.N. Abbasov "Pedaqogika" dərs vəsaitində yazır: "***Təlim*** müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətinin xüsusi təşkil edilmiş, məqsədyönlü, sistemli və idarə olunan prosesi olub bu zaman bilik, bacarıq və vərdişlərin mənimsənilməsi baş verir, məktəblilərin təhsili, tərbiyəsi və inkişafı həyata keçir. [3].

Təlimin funksiyası işarə və əşyavi vasitələrin insanlarla fəaliyyət bacarıqlarının maksimal dərəcədə uyğunlaşdırılmasından asılıdır. Təlim şagirdlərin fəal idrak-təlim fəaliyyətinin təşkili və stimullaşdırılmasının məqsədyönlü pedaqoji prosesdir ki, burada elmi bilik, bacarıq və vərdişlərin mənimsənilməsi, yaradıcı bacarıqların, dünyagörüşü və mənəvi-estetik baxışların inkişafı özünü göstərir" [5].

Təlim prosesində şagirdlərin yaradıcı bacarıqlarının inkişafını əks etdirən digər bir dərslikdə isə məsələnin qoyuluşuna və həyata keçilməsinə məhz məktəb təcrübəsini, praktik vərdişləri ümumiləşdirmək baxımından dəyər verilir.

Məsələn, akad. M.M. Mehdizadə "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları" adlı monoqrafiyasında göstərirdi ki, "problemin aktuallığına da ciddi sosial-ictimai mövqedən baxılmalıdır. Sübut etməyə ehtiyac yoxdur ki, təlim metodlarının yeniləşdirilməsi sahəsindəki çətinliklər onun nomenklaturunun (mahiyyətinin) yeni metod və priyomlarla ləng zənginləşdirilməsindən daha çox (şübhəsiz bu da zəruridir) metodlar xəzinəsinin, nəzəri və əməli təfəkkürünü inkişaf etdirən metodların təlim prosesində tələb olunan səviyyədə tətbiq edilməsindən ibarətdir. Bu isə bir tərəfdən müəllimlərin bir qisminin hələ metodik cəhətdən zəif silahlanması ilə, digər tərəfdən bunun üçün zəruri şəraitin: proqramların çox yüklü olması, texniki təlim vasitələrinin hər məktəbdə kifayət dərəcədə olmaması və s. ilə əlaqədardır" [9, s. 96].

Təlim fəaliyyətində müstəqil işin təşkilində yaradıcı fəaliyyət göstərməyin müxtəlif çaları var. Şagirdlərin tədris (oxumaq, yazmaq) və idrak bacarıqlarını yeni, təkmil konsepsiyalar əsasında qurmaq üçün verilmiş tövsiyələr, üzə çıxarılan ideyalar, mənimsədilən təcrübi istiqamətlər bir daha göstərir ki, dərsdə və dərsdənkənar

təlim xarakterli tədbirlər zamanı şagirdlərin yaradıcı qabiliyyətləri nümunəvi əsasda təşkil olunarsa, bu zaman onların həm bilik mənimsəmə, həm də düşüncə itiliyinin səmərəliliyi yüksəlir.

Müstəqil işin təşkili zamanı yaradıcı təfəkkürlə özünü təkmilləşdirən şagird müstəqil növ fəaliyyətin hər bir sahəsində möhkəm uğur qazanır, nailiyyətlərini daha sürətlə başa vurur.

Yaradıcı fəaliyyət göstərməyin üstünlükləri çoxdur. Şagird istər tədris, istərsə də təlim fəaliyyəti boyu həm öyrənməyi öyrənir, həm də öyrənməyi öyrədir. Özünü təkmilləşdirməyin qayğısına qalır, müəllimlərin isə öyrəndiklərini düzgün, əsaslı nəzəri-metodik şansla tətbiq etməyin nümunələrini mənimsəyirlər.

Yaradıcı fəaliyyət prosesində müstəqil iş üzrə vərdiş qazanmağın şagirdlər üçün potensial əhəmiyyəti həqiqətən böyükdür. Pedaqoji fəaliyyətin özünün təbiətinə xas olan yaradıcılıq potensialı, emosionallığı istər orta ümumtəhsil, istərsə də ali məktəbdə təlim-tərbiyə prosesini optimallaşdırmağa imkan yaradır. Müəllim dərs prosesində şagirdin bilik mənimsəmə keyfiyyətinə təsir edən yaradıcı şəxsiyyətdir. Müstəqil işin təşkilində o, özünün bütün istedad və qabiliyyəti ilə yaradıcı fəaliyyətinə əzmlə yanaşır, öz şagirdlərini sərbəst düşüncə, müstəqil fəaliyyət, işgüzar psixologiya, dərin analitik təhlil yönümündən həyata hazırlayır. Müəllim həm də şagirdlərin yaradıcı düşüncəsinə (kreativlik səviyyəsinə) nəzarət edir, yüksək səviyyəli uşaqlarla yanaşı, təlimdə geri qalan şagirdlərin də müəyyən yaradıcı bacarıqlarla səfərbər olunması qayğısına qalır. Yəni, müəllim özünün bütün yaradıcı təbiətini qarşıdakı dərsin səmərəli təşkilinə səfərbər edir: “diqqətini cəmləşdirir, sinfin və dərsin məzmun və mahiyyətini modelləşdirir, cəzbedici yaradıcılıq vəzifəsini fikirləşib tapır, bu məsələni ayrı-ayrı yarımməsələlərə bölür. Yəni, müəllim psixoloji baxımdan dərsin keçəcəyi şəraitə “baş vurur”, bu da onun “nüfuzedici davranış xəttinin” yaranmasına kömək edir.

Müəllimin yaradıcı əhval-ruhiyyəsi onu ilhama gətirir, bu zaman nəzərdə tutulan pedaqoji təsirlər planı asanlıqla və ardıcıl surətdə həyata keçirilir, pedaqoji improvizə priyomu işə düşür. Bu cür vəziyyət o vaxt yarana bilər ki, müəllim tədris materialına sərbəst yiyələnmiş olsun. Araşdırmamızın predmetindən görünən kreativlik düşüncəsindən əxz edəcəyimiz keyfiyyətlər, çıxaracağımız, daha doğrusu yada salacağımız bir nəticə də təlim prosesinin hər sahəsində olduğu kimi, onun müstəqil işin təşkili prosesində yaradıcı fəaliyyətin tutduğu mövqeyi ilə əlaqələndirilməlidir. Mən bu haqda apardığım müsahibə və sorğular zamanı, dərslərdə apardığım müşahidələr zamanı da şahidi olmuşam. Qənaətim isə bu olub ki, şagirdin yaradıcı fəaliyyətə sövq olunmasının əsas nümunəsi elə müəllimin özündən, onun hazırlığından, iradi keyfiyyətlərindən, rast gəldiyi çətinliklərə qalib gəlmək üçün ona sinə gərə bilmək qabiliyyətindən asılıdır. Mən bu vəziyyəti dəfələrlə müşahidə etmişəm ki, böyük mütəfəkkir-pedaqoq K.D. Uşinski bu münasibətlərə çox haqlı olaraq yazırdı ki, yaradıcı fəaliyyətə “xarakteri xarakter vasitəsilə formalaşdırmaq olar” [14].

Elə müəllimlər var ki, onlar dərsliyin çərçivəsindən bir addım belə kənara çıxmağa cəsarət etmirlər. Dərslikdə nə varsa, yalnız onların üzərində iş aparmaqla məhdudlaşırlar. Bu isə psixoloji baxımdan öyrənənlərdə müstəqilliyin inkişafına mənfi təsir göstərir. Danılmaz faktdır ki, müəllim şagirdlərə əlavə biliklər verəndə, onları dərsliklərdən fərqli çalışmalar üzərində işlədəndə dərs daha maraqlı keçir, uşaqlar müstəqil işləməyə daha böyük həvəs göstərirlər [11].

Bu gün də təlim prosesində müstəqil işin təşkilində şagirdlərin yaradıcı düşüncə əsasında nümunəvi və qabaqcıl müəllimlərin iş təcrübəsindən novator iş üsulu kimi öz dəyərini itirməyən mülahizələr fəaliyyət üçün örnək olmalıdır. Şagirdlərin yaradıcı fəaliyyətə cəlb olunması, təkcə müəllimin pedaqoji ustalığı ilə bağlı da ola bilməz. Gərəkdir ki, bu fəaliyyət prosesində şagird fəaliyyətinin xüsusiyyətləri də elmi araşdırmalar üçün tədqiqat sahəsi olsun, təlim prosesində qazanılan bilik, bacarıq, vərdiş və mənəvi keyfiyyətlərin möhkəmləndirilməsi yolunda şagird ilə özünütəlimləndirmə imkanlarını işə salmağı bacarsın, o, tədris və təlim əməyinə ürəkdən qoşulsun, özünə “kəşf edən, icad edən” müstəqil tədqiqatçıya xas olan axtarışlara özünün qoşulması strategiyalarını yaxşı başa düşsün. Bəzən müəllim yeni tədris mövzusunun izahlı təhlili yalnız təəssürat səviyyəsində şagirddən soruşur. Yəni yaradıcı fəaliyyətin o biri mərhələləri, anlama, başa düşmə, möhkəmləndirmə imkanları üçün vaxt aparılmır. Yalnız sxematik iş, “kitabdakını söylə”, “kənara

çıxma", "müəllifin fikrini olduğu kimi ifadə et", "dərslikdə necə varsa, sən də elə danış", "mətndəki abzasları əzbərlə" kimi amiranəlik girdabına səmtləndirilən şagird bu zaman əzbərçiliyə daha çox meyllənir, tədris materialını şüurlu mənimsəməyə nail ola bilmir, öyrədici materialın yalnız məzmununu şərh edir, izahlı təhlil aparmadan qazandığı mənimsəmə materialının daxili dünyasına müdaxilədən çəkinir.

Nəticədə isə, şagirdin yaradıcı fəaliyyət imkanı buxovlanır. O, öz istək və arzularını rəy və təkliflərini deyil, ancaq şablon qaydada dərslik müəllifinin "status almış" mülahizələrini oxuyub qavramaq səviyyəsində, quru mühakimə və ümumi fikir cığırından o yanı aşmır, bu barədə aparılan tədqiqatlar da birtərəfli mahiyyətə xidmət etdiyindən, şagirdləri imtahan prosesində də izahlı şərhetmə metodu ilə öz mülahizələrini yaradıcı (kreativ düşüncə) tərzi ilə çözələməsi imkanı yavaşıyır. Şagird yalnız standart çərçivədə fikir təqdim etməyə alışır. Halbuki, müasir biliklənməyə verilən tələblərdən biri kimi, "düşüncəyə, mühakiməyə xidmət edən metodika ilə şagirdin yaradıcı fəaliyyətə qoşulması, öz müstəqil düşüncə əməliyyatları ilə, müəllimi ilə və şagird yoldaşları ilə, hətta ətraf aləmdəki fərdlərlə belə fikir mübadiləsi aparmaq cəhdi yaddan çıxılır, unudulur. Bu işin səmərəliliyini təmin etməyin nəzəri sistemini verən prof. M. İsimxanov "Pedaqogikanın əsasları" dərs vəsaitində problemə yeni ruhdan dəyər verərək onu belə səciyələndirir:

"Təlimdə şagirdlərin yaradıcı fəallığını stimullaşdırmaq böyük əhəmiyyət kəsb edir. Bunun üçün fəallığın struktur komponentlərinə aşağıdakılar aid edilir:

1) tapşırıqların icrasına hazır olmaq;
2) müstəqilliyə can atmaq;
3) tapşırıqları şüurlu yerinə yetirmək;
4) təlimlə sistemli məşğul olmaq;
5) öz şəxsi səviyyəsini yüksəltməyə səy göstərmək.

Şagirdlərin fəallığını stimullaşdırmaq məqsədi ilə dərslərdə fəallaşdırıcı situasiyaların yaradılmasından istifadə olunur. Pedaqoji ədəbiyyatda onların müxtəlif növləri qeyd edilir:

– öz fikrini müdafiə etmək;
– müzakirələrdə iştirak etmək;
– suallar qoymaq;
– yoldaşlarının cavablarına qiymət vermək;
– cavablarla bağlı rəy söyləmək;
– geridə qalanlara kömək etmək;
– müstəqil işləmək;
– zehni məsələnin (problemin) bir neçə həlli variantını tapmaq;
– özünü yoxlamaq;
– zehni məsələləri kompleks üsullar tətbiq etməklə həll etmək və s.

Müəllim nəzərdən keçirilən motiv və stimullardan yerində və bacarıqlı istifadə etməklə hər bir şagirdin fəaliyyətini stimullaşdırmağa, təlimi cəlbedici və sevimli işə çevirməyə çalışmalıdır" [5, s. 83].

Göründüyü kimi, təlimdə şagirdlərin yaradıcı fəaliyyəti elmi əsaslarla, modern yeniliklərlə, sübutlu metodik vasitələrlə, diaqnostik tələbatlarla həyata keçirən zaman, şagirdin yaradıcılıq üfüqləri genişlənir. O, "öyrənməyi öyrənmək" addımını möhkəm platforma üzərinə asanlıqla qoya bilir. Həm təlim, həm də idrak motivikasiyalarını bərabər səviyyədə işə salmaqla özündə təşəbbüskarlıq, işgüzarlıq, yenilikçilik, novatorçuluq, innovativlik, müasirlik, stimullaşdırıcılıq kimi yaradıcı komponentləri (ünsürləri) həm də kreativlik nəzəriyyələrinə əsaslanan qabaqcıl təcrübə ünvanından əxz edərək özlərinin bilik, bacarıq, vərdiş və mənəvi keyfiyyətlərini yeni, mükəmməl pedaqoji texnologiyalar (kompüterlərdən istifadə, interaktiv dərs, interaktiv metod və interaktiv təlim əsasında özünü yaradıcı təfəkkür əməliyyatları ilə silahlandıraraq, "beyin həmləsi" kimi dəyərləndirilən axtarışlara tədqiqatlara doğru müstəqil düşüncə zəminində hazırlığı səviyyəsini yüksəldə bilir.

Nə deyib, nə yazdığını, necə düşünüb daşındığını, hansı məsələni və nə üçün öyrəndiyini yaradıcı prizmadan dəyərləndirib bu işdən zövq alır.

Məşhur psixoloq C.S. Kostyuk yazır: Təfəkkür insana hadisə və əşyanı seyr etməklə onların mahiyyətini dərk etməyə, qanunauyğunluq, əlaqə və münasibətləri aydınlaşdırmağa və bunların sayəsində təbiət və cəmiyyət hadisələrini başa düşməyə və onları idarə etməyə, onları insanın öz davranışlarını daha yaxşı tənzim etməyə imkan verir".

Odur ki, birmənalı olaraq həm mənəvi, həm də müasir Pedaqogika dərsliklərində, pedaqoji ədəbiyyatlarda da bu qəbildən olan yanaşmalara müstəqil işin təşkili zamanı təlim prosesində araşdırılan problem məhz, şagirdlərin

idrak fəaliyyəti, hissi və məntiqi dərketmə əməliyyatlarına əsaslanır. Pedaqoji proseslərdə şagirdlərin yaradıcılıq fəaliyyətini gücləndirmək üçün görülən tədbirlər ona görə vacibdir ki, bu halda müəllimin verdiyi bilik, bacarıq, vərdiş və mənəvi keyfiyyətlər əsasında müstəqil olaraq mühakimələr, ümumiləşdirmələr və müqayisələr, əqli nəticələr çıxarmaq yolu ilə şagird öyrənilәsi elmi həqiqətləri, mənimsənilən tədris mövzularını, tövsiyə olunan tapşırıq nümunələrini sanki özü yenidən kəşf edir, nəticələri özü çıxartdığına güvənib yeni tədris mövzuları üzrə yaradıcı planlaşdırmanı növbəti dərs üçün əsas meyar götürür.

Beləliklə, tam yəqinliklə demək olar ki, təlim prosesində müstəqil işin təşkilində şagirdlərin yaradıcı fəaliyyətini araşdıran hər bir tədqiqatçı tələbənin, müəllimin bu gün ümdə vəzifəsi düşünməyə, təfəkkür fəaliyyətinə alışmağa , yaradıcı fəaliyyətə, müstəqil işləməyə sövq edir.

Pedaqoji fəaliyyətin struktur elementlərinin zənginləşdirilməsindən asılı olaraq, onun yeniləşən istiqamətlərini peşəkarcasına, yaradıcı məzmunda, yüksək metodik işləmələr əsasında təşkil etmək olduqca aktual və əhəmiyyətli bir məsələdir. Şagirdlərin yaradıcı fəaliyyətini düzgün təşkil etməyin metodik əsaslarını, psixoloji halətlərini, ümumi məsələlərini bilmədən bu sahədə zəruri olan peşə-sənət kompetensiyalarını da ciddi dəyərlər əsasında mənimsəmək olmaz. Odur ki, yaradıcı fəaliyyətin işlək texnologiyalarını, tətbiq xüsusiyyətlərini peşəkarcasına yüksəldib təkmilləşdirməkdən çox şey asılıdır.

Müasir şəraitdə məktəbin əsas vəzifəsi şagird şəxsiyyətinin inkişafına kömək edəcək təhsil mühiti yaratmaqdır. Bu məsələnin həllində isə pedaqoji kadrların peşə səriştəliliyi pedaqoji fəaliyyətini yerinə yetirmək üçün müəllimin də nəzəri və praktik hazırlığıdır. Bu iş onun pedaqoji ustalığını müəyyən edir. Səriştəli müəllim şagirdlərin yaradıcı fəaliyyətini yüksək səviyyədə qurur və şagirdlərin təlim-tərbiyəsində stabil nəticələr əldə edir. Müəllimin yaradıcı fəaliyyətlə bağlı peşə səriştəliliyini inkişaf etdirməsi onun pedaqoji yeni pedaqoji innovasiyaları qəbul edə bilməsi, dəyişən pedaqoji mühitə uyğunlaşa bilməsi qabiliyyətlərinin formalaşdırılmasıdır.

Müasir nəzəri və təcrübi fəaliyyət əsasında apardığımız araşdırmalar bir daha təsdiq edir ki, müstəqil işin təşkilində pedaqoji fəaliyyətin strukturu əsasən metodoloji, psixoloji, texnoloji və metodik səviyyədə reallaşdırılır. Həmin bu komponenetlər şagirdlərin yaradıcı fəaliyyətinin uğurlu aparılmasını şərtləndirən mühüm xüsusiyyətlərdəndir.

Müəllim fəaliyyətinin səciyyəvi xüsusiyyətlərini əks etdirən "iki tərəfli fəaliyyət birliyi, şagirdlərin tərbiyəsinə və psixoloji inkişafına yönələn müəllim fəaliyyətinin təşkili, şagirdin fəallığa həvəsləndirilməsi, təlimdə şagird fəaliyyətinə müəllimin nəzarəti ilə müşayiət olunan yaradıcı təfəkkür, işgüzar əmək əsas keyfiyyət göstəricisi olan şagird fəaliyyətinə aydınlıq, stimul bəxş edir. Müasir pedaqoji fəaliyyətin strukturunda isə ən ümdə cəhət öz fəaliyyətinin təhlil olunması qabiliyyətinin müəllim (tərbiyəçi) tərəfindən nəzərə alınmasıdır. O da yaxşı məlumdur ki, "öz pedaqoji fəaliyyətini təhlil edə bilməyən müəllim şagirdlərinin bilik və bacarıqlarını necə qiymətləndirə bilər? Müəllim fəaliyyətinin özünütəhlil bacarıqlarını artırmaq üçün məqsədyönlü metodik işin aparılması vacibdir."

Bəs bütün bunlar özündə nəyi ehtiva edir? sualına da münasibət bildirmək vacibdir. Bu gün müəllim məktəbdə təkcə dərs prosesində müstəqil işin təşkilində yaradıcı fəaliyyət göstərən şəxs deyil, o həm də dərsdənkənar tədbirlər prosesində şagirdlərin davranış təcrübəsində əks olunan yaradıcı fəaliyyətin əsası olan müstəqilliyi, sərbəstliyi, tədqiqatçılığı, arayıb-axtarmağı, kəşf etməyi, ümumiləşdirməyi, sadədən mürəkkəbə, asandan çətinə gedən yolda büdrəməməyi nəzərdə tutulan keyfiyyətlərə də sahib çıxmaqla şagirdin təlim bacarıqlarına və idrak fəaliyyətinə aydın çıraq tuta bilir. Bu günün şagirdi modern düşüncəyə, mühakiməli yaradıcı təfəkkürə qabil olan şəxsiyyət kimi düşünüb-daşınır. Onun yaradıcı fəaliyyət sferasında tətbiq olunan metodlar, üsullar o zaman səmərəli nəticə verir ki, dərs prosesində müəllim şagirdin yaradıcı şəraitini, məqama uyğun iş rejimini düzgün təşkili qayğısına qalsın.

**Məqalənin aktuallığı**. Tələbələrdə müstəqil işin təşkilində yaradıcı fəaliyyətin səmərəli təşkili özünün aktuallığı ilə fərqlənir.

**Məqalənin yeniliyi**. Tələbələrdə müstəqil işin təşkilində yaradıcı fəaliyyət səmərəli olduğu diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**


1. Abbasov O.A. Təhsilin idarə olunması. Bakı: "MM-S" müəssisəsi, 2016.
2. Bəşirov V.Y. Ali məktəb didaktikası. Bakı: Maarif, 1992.
3. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2015.
4. İlyasov M.İ. Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları. Bakı: Elm, 2005.
5. İsimxanov M.A. Pedaqogikanın əsasları. Bakı: ADPU-nəşriyyatı, 2013
6. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çıraq, 2011
7. Kazımov N.M. Pedaqoji ustalığın problemləri. Bakı: Çaşıoğlu, 2009
8. Qaralov Z.İ. Tərbiyə. Bakı: Pedaqogika, 2003
9. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982
10. Mikayılov B.N. Müasir dərs: Yeni yanaşmalar. Bakı: Elm və təhsil, 2016
11. Müstəqil düşüncəli şagirdləri necə yetişdirməli? Bakı: Xəzər Universiteti, Dünya məktəbi, 2016
12. Veysova Z. İnteraktiv təlim. Dərs vəsaiti, Bakı: UNİSEF, 2007
13. Деньгуб В., Смирнов В. Г. Единицы величин. Словарь справочник. — М.: Издательство стандартов, 1990, s. 93
14. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.


**E-mail***:* fira_350@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü. fəl.dok., dos.* **Ə.Y. Səfiyev**

**Redaksiyaya daxil olub**: 15.03.2021